Üç nöqtə.- 2018.-27dekabr



# "Bakı Dövlət Sirkinin yeri dəyişdirilməlidir"

## NAZİR: "AZƏRBAYCANDA MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ ZİDD FİLMLƏR NÜMAYİŞ ETDİRİLMƏMƏLİDIR"




**MƏDƏNİYYƏT** naziri Əbülfəz Qarayev Azərbaycanda çəkilən seriallarda bayağı fikirlərə geniş yer verilməsinə münasibət bildirib. Nazir deyib ki, Prezident İlham Əliyev bu yaxınlarda Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında müvafiq fərman imzalayıb və dillə bağlı işlər həmin sənədə uyğun olaraq həyata keçirilməlidir. Ə.Qarayev vurğulayıb ki, hər bir dövlət müəssisəsi, onun rəhbəri və işçiləri, eləcə də digər aidiyyəti şəxslər bütün yerlərdə Azərbaycan dilinin təmizliyini mütləq qorunmalı və qaydalara riayət edilməlidirlər. Nazir bildirib ki, bu məsələyə müasir təsirlər də qaçılmaz xarakter alıb: "Bütün bunların hamısını Azərbaycan dilinin təmizliyini qorumaq şərtilə həyata keçirmək lazımdır. Hesab edirəm ki, bu gün teatrlarımızda nümayiş olunan tamaşalarda, kino çəkilişi zamanı dil məsələsinə xüsusi diqqət yetirilməlidir. Mədəniyyət Nazirliyi də öz səlahiyyətləri çərçivəsində buna nəzarət edir".

Ə.Qarayev əlavə edib ki, bu gün ölkədə kino sahəsi böyük biznesə çevrilib: "Nazirlik olaraq yeni nəsil kadrların formalaşmasına köməklik edəcəyik. Xüsusi təhsil və təkmilləşmə proqramları həyata keçirəcəyik. Beynəlxalq əməkdaşlığa da xüsusi önəm veriləcək. Ölkədə bütün kinoteatrlar özəlləşdirilib. Hesab edirəm ki, biznes sahəsi ilə məşğul olan şirkətlər kino çəkilişi sənayesinə diqqət yetirməli və vəsait əldə edərək kino şəbəkəsinin genişlənməsinə öz töhfələrini verməlidirlər".

Ə.Qarayev deyib ki, Mədəniyyət Nazirliyi xarici filmlərin qeydiyyatını həyata keçirəcək: "Azərbaycanda nümayiş olunan hər bir filmin ölkənin mənəvi dəyərlərinə zidd olmamasına nəzarət edilməlidir. Eyni zamanda, kinolarımızın regionlarda təbliğinə diqqət edəcəyik". Nazir həmçinin bildirib ki. gələn il İrəvan Dövlət Dram Teatrının yeni binası istifadəyə veriləcək. Onun sözlərinə görə, bir neçə böyük mədəniyyət müəssisələrinin əsaslı təmir və bərpası üçün layihələr hazırlanıb: "Dövlət büdcəsində imkanlar olduğu zaman bu layihələrin həyata keçirilməsinə nail olacağıq. Opera və Balet Teatrının yenidən qurulması və bərpasının layihəsi artıq hazırdır. Eyni zamanda, düşünürük ki, Bakı Dövlət Sirkinin yerinin dəyişdirilməsinin vaxtı çatıb".

*Könül*